# Dünya azərbaycanlılarının həmrəylik amalı



**Milli ruhun intellektual potensialla birləşdiyi yerdə Azərbaycanın haqq səsi dünyanın siyasi müstəvisində daha qətiyyətlə əks-səda verir. Bu birlik dünya azərbaycanlılarını vahid məqsəd ətrafında sıxlaşdıran ən güclü bağdır.**

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü dünyanın müxtəlif bölgələrində məskunlaşmış soydaşlarımızı ortaq bir amal uğrunda birləşdirən müqəddəs bayramdır. Bu bayramın təsis edilməsi Azərbaycanın müasir dövlətçilik tarixində müstəsna yer tutur. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində əsası qoyulan bu həmrəylik ideologiyası, milli kimliyimizin qorunması və diasporumuzun təşkilatlanması yolunda atılan ən cəsarətli addım idi.

Bu gün həmin strateji xətt Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun olaraq uğurla inkişaf etdirilir. İndi dünya azərbaycanlıları dağınıq deyil, vahid mərkəzdən idarə olunur, milli maraqlarımızı beynəlxalq arenalarda qətiyyətlə müdafiə edirlər.

Milli həmrəyliyimizin ən parlaq sınağı və qürur mənbəyi 44 günlük Vətən müharibəsi oldu. Bu dövrdə biz şahidlik etdik ki, coğrafi məsafələrdən asılı olmayaraq, hər bir azərbaycanlının qəlbi Vətən eşqi ilə döyünür. Xaricdə yaşayan soydaşlarımızın Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün nümayiş etdirdiyi fədakarlıq, "Dəmir Yumruq" fəlsəfəsinin sadəcə hərbi güc deyil, həm də sarsılmaz bir mənəvi vəhdət olduğunu sübut etdi.

Müasir dünyada həmrəylik həm də intellektual əməkdaşlıq deməkdir. Xaricdəki azərbaycanlı alimlərimiz, tədqiqatçılarımız və ictimai xadimlərimiz ölkəmizin elmi-mədəni potensialını tanıdaraq, Azərbaycanın haqq səsini akademik müstəvilərdə ucaldırlar. Bu gün biz fəxrlə deyə bilərik ki, diasporumuzun gücü həm də onun intellektual kapitalındadır.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü bizim gələcəyə inamımızın, milli gücümüzün və əbədi varlığımızın rəmzidir. Bu gün Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmiş, suverenliyini tam təmin etmiş qüdrətli bir dövlət kimi hər bir soydaşımızın sığınacaq yeri, qürur mənbəyidir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibətilə bütün dünya azərbaycanlılarını, xüsusən də elm fədailərimizi səmimi qəlbdən təbrik edir, hər birinə möhkəm cansağlığı və yeni uğurlar diləyirik. Qoy milli həmrəyliyimiz polad tək möhkəm, müstəqilliyimiz isə sarsılmaz olsun.